# Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri, zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Azərbaycanda keçirilən Prezident seçkilərində Sizin inamlı qələbəniz Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının çoxminli üzvlərində yüksək əhval-ruhiyyə yaratmışdır. Bütün Azərbaycan xalqı kimi biz qəbələlilər də bayram sevinci içərisindəyik.

Möhtərəm cənab Prezident!

Siz Azərbaycan Respublikasının tanınmış lideri, dünya siyasətinin ən parlaq simalarından birisiniz. Prezident seçilməyiniz münasibəti ilə YAP Qəbələ Rayon Təşkilatının bütün üzvlərinin ən səmimi təbriklərini və sevinc hislərini zati-alilərimizə çatdırmaqdan şərəf duyuruq.

Əminik ki, Sizin rəhbərliyiniz altında müstəqil Azərbaycan dövləti sosial-iqtisadi, ictimai və siyasi arenada yeni-yeni uğurlara imza atacaq, xalqımız sülh, əmin-amanlıq və firəvanlıq şəraitində yaşayacaq, qurub-yaradacaqdır.

Sizi bu böyük və parlaq qələbəniz münasibətilə Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilarının üzvləri adından təbrik edir, Sizə can sağlığı, uzun ömür, vətənimizin günü-gündən çiçəklənməsi naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

**Yeni Azərbaycan Partiyasının Qəbələ Rayon Təşkilatı.**

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Qəbələ Rayonu Ağsaqqallar Şurasının təbrik məktubu

**Möhtərəm cənab Prezident!**

Azərbaycan xalqının böyük etimadını qazanaraq yenidən Prezident seçilməyiniz münasibətilə Qəbələ Rayon Ağsaqqallar Şurasının çoxsaylı üzvlərinin ən səmimi təbriklərini və sevinc hisslərini Sizə çatdırmaqdan məmnunluq duyuruq. Keçirilən Prezident seçkilərində sizin parlaq qələbəniz əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçilik ənənəsinin və son 10 ildə əldə etdiyimiz uğurların xalqımız tərəfindən qətiyyətlə dəstəklənməsinin bariz nəticəsidir.

Sizin rəhbərliyinizlə həyata keçirilən hərtərəfli islahatların daha da genişləndirilməsi, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, xalqın həyat səviyyəsinin ildən-ilə yüksəldilməsi və Azərbaycanın dünya birliyində mühüm yer tutması biz qəbələlilər tərəfindən də böyük razılıq hissi ilə qarşılanır. Əminik ki, növbəti Prezidentlik dövrünüzdə də nailiyyətlərimiz artacaq, ölkəmiz beynəlxalq müstəvidə öz mövqelərini bir daha möhkəmləndirəcəkdir.

Sizə müstəqil Azərbaycanımızın inkişafı və xalqımızın daha işıqlı gələcəyi naminə gərgin və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar, uzun ömür, möhkəm cansağlığı arzu edirik.

**Qəbələ rayonu ağsaqqalları adından**
**Nazim Mustafayev,**
**rayon ağsaqqallar şurasının sədri.**

*21 oktyabr 2013-cü il.*

# Heydər Əliyev mərkəzində

Qəbələ rayon Heydər Əliyev Mərkəzində müstəqilliyimizin 22-ci ildönümü ilə əlaqədar bir sıra tədbirlər keçirilmişdir. Belə tədbirlərdən biri də şəhər 3 saylı tam orta



məktəbdə keçirilən "Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır" mövzusu ətrafında açıq dərs olmuşdur.

Dərsdə mərkəzin əməkdaşı Vüsalə Cabbarova müstəqilliklə əlaqədar geniş söhbət aparmış, tarix müəllimi Vaqif Əhmədov və ədəbiyyat müəllimi Xavər Şıxəliyeva çıxış etmişlər. Məktəblilərə mözvuya aid materiallar paylanmış və onların ictimai-siyasi biliklərinin genişləndirilməsi məqsədi ilə sorğu keçirilmişdir.

Müstəqilliyimizin 22-ci ildönümü ilə bağlı Mərkəzdə dəyirmi masa tədbiri təşkil olunmuşdur.Tədbirdə Təhsil şöbəsinin tarix fənni üzrə metodisti Tərbiyə İsayeva, şəhər 4 saylı tam orta məktəbin tarix müəllimi Nuriyyə Məmmədova, yuxarı sinif şagirdləri və «Qəbələ» qəzeti redaksiyası əməkdaşları iştirak edirdi. Tədbiri Mərkəzin direktoru Xəyalə İsayeva giriş sözü ilə açaraq bildirdi ki, belə əlamətdar tarixi hadisələr gənclər tərəfindən dərindən öyrənilməlidir.

Onların vətənpərvər ruhda tərbiyələnməsi üçün bu vacib şərtdir. Müstəqilliyi əldə etmək çox çətindir, amma onu qoruyub saxlamaq daha da çətindir. XX əsrdə Azərbaycan iki dəfə öz müstəqilliyini qazanmışdır. Birinci dəfə Rusiyada çarizmin devrilməsindən az sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandı və 23 ay (28 may 1918 -27 aprel 1920) fəaliyyət göstərdi. Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra 28 aprel 1920-ci ildən 1991-ci ilin 18 oktyabrına qədər Azərbaycan SSR-nin tərkibində mövcud olmuşdur. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasında dövlət müstəqilliyi yenidən bərpa olundu.

Müstəqilliyimizin ilk illəri çox təlatümlü keçdi. 1993-cü ilin yayından ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə müstəqilliyimizin yeni dövrü başladı. Bu dövr Azərbaycan tarixində xüsusi yer tutur. Bu dövrü fərqləndirən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, Azərbaycanda Heydər Əliyev öz yüksək dövlətçilik təcrübəsi və bacarığı ilə Azərbaycanın müstəqilliyini daimi elədi.

Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir.

Təhsil şöbəsinin tarix fənni üzrə metodisti Tərbiyə İsayeva, şəhər 4 saylı tam orta məktəbin tarix müəllimi Nuriyyə Məmmədova çıxışlarında qeyd etdilər ki, xalqımız bu günə çatmaq üçün çox sınaqlardan keçib. Amma sevindirici haldır ki, xalqa dəstək verən, ona yol göstərən Heydər Əliyev kimi ümummilli liderimiz olub. Bünövrəsi yaxşı qoyulduğuna görə bu gün ölkəmiz yüksək səviyyədə inkişaf edir. Gənclərimiz onlara yaradılan şəraitdən səmərəli istifadə etməlidirlər, vətənə layiq övlad olmalıdırlar.

Mərkəzin əməkdaşı Sədaqət Kazımova "Müstəqilliyimizin memarı və qurucusu" mövzusunda mühazirə oxumuşdur. Məktəblilərə mövzu ilə bağlı suallar verilmiş, materiallar paylanmışdır.

Tədbir diskussiya şəklində sona çatmışdır.

**Qüdrət SƏMƏDOV.**
**Foto S. Umuyevindir.**

# Müstəqilliyə aparan yollar

Çox çətin sınaqlardan sonra tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik qazanmaq şansı əldə etdi və özünün suveren dövlətini yaratmaq imkanı qazandı. XX əsrin əvvəllərində qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Xalqımız bu mühüm tarixi sənədlə uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu.

Lakin Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonrakı illərdə xalqımız həm daxili və həm də xarici düşmənlərin hücümlarına məruz qaldı. Mənfur qonşularımız olan ermənilər bu fürsətdən istifadə edərək xarici havadarlarının, xüsusilə keçmiş sovet silahlı qüvvələrinin köməyi ilə torpaqlarımızın 20 faizini işğal etdi. Bir milyon soydaşlarımız doğma ata-baba yurd yerlərindən didərgin salındı, soydaşlarımız qaçqın və məcburi köçkün həyatı yaşamalı oldular. Daxildə gedən siyasi çəkişmələr, özbaşınalıq, hakimiyyət boşluğu baş alıb getməyə başladı. Müstəqilliyini qazandıqdan sonra xalqımız onu itirmək təhlükəsi ilə üzləşdi. Bir sözlə, daxildə gedən çəkişmələr, separatçılıq hərəkatı müstəqtlliyin beşiyindəcə boğulması təhlükəsini reallaşdırırdı. Lakin belə çətin bir məqamda xalq öz taleyinə biganə qala bilməzdi. Xalq öz böyük oğluna, beynəlxalq miqyasda böyük nüfüzü olan siyasətçi, dövlətin idarə olunmasında zəngin təcrübəsi olan və görkəmli dövlət xadimi Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Böyük təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu. O, müstəqillik yollarındakı çətinlikləri aradan qaldırdı, daxili səkişmələrin, dövlət çevrilişi cəhdlərinin qarşısını aldı. Ölkədə hər sahədə əsaslı islahatlara, dövlət mülkiyyətinin özəlləşdirilməsinə başlandı. Ulu öndərin əsasını qoyduğu neft strategiyası iqtisadiyyatın yüksəlməsinə təkan verdi, həm də beynəlxalq miqyasda Azərbaycanın nüfuzunun artmasına səbəb oldu.

**(Ardı 7-ci səhifədə).**